**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№1**

**Bakı şəhəri** **19 fevral 2021-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Aydan Tariyel qızı Məmmədovanın Bakı Şəhər Statistika İdarəsinin Sosial statistika sektorunda məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il dekabrın 04-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Məmmədova Aydan Tariyel qızı Bakı Şəhər Statistika İdarəsinin Sosial statistika sektorunda məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 05 avqust tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2020-ci il dekabrın 04-də Bakı Şəhər Statistika İdarəsinin sektor müdiri Telman Quliyev, Dövlət İmtahan Mərkəzinin böyük məsləhətçisi Elnur Abbasov və müstəqil ekspert Fərhad Mirzəyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədova Aydan Tariyel qızına müsahibə komissiyasının üzvlərindən T.Quliyev 12 bal, F.Mirəzyev 10 bal, E.Abbasov isə 12 bal vermiş və nəticədə iştirakçı 11,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 10.12.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi E.Abbasovun rəyinə əsasən namizədin ümumi dünyagörüşü yaxşıdır, lakin müsahibə proqramları üzrə bilik səviyyəsi, peşə hazırlığı, vakant vəzifə üçün zəruri olan keyfiyyətləri lazımi səviyyədə deyildir və vəzifənin tutulması şərtlərinə cavab vermir. Müstəqil ekspert F.Mirzəyevin rəyinə əsasən namizədin qanunvericilik və digər nəzəri bilikləri iddia etdiyi vəzifənin tələblərinə uyğun deyildir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Məmmədova Aydan Tariyel qızının 10 dekabr 2020-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Bakı Şəhər Statistika İdarəsinin Sosial statistika sektorunda məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il dekabrın 04-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**